# Yubileyə həsr olunmuş ədəbi-bədii gecə

Sumqayıt Dövlət Dram Teatrında dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Ədəbi-bədii gecədə teatrın aktyorlarının hazırladığı kompozisiya nümayiş olunub, incəsənət ustalarının ifasında Nəsiminin qəzəllərindən nümunələr səslənib. Nəsimi obrazının təkrarsız ifaçısı, Xalq artisti Rasim Balayevlə görkəmli xanəndə, Xalq artisti Alim Qasımovun dueti hərarətli alqışlarla qarşılanıb.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 7.